İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# SEVGİ HARDADIRSA, TANRI ORDADIR

(hekayələr)

LEV TOLSTOY

Rus dilindən tərcümə:

Mahir N. Qarayev
Saday Budaqlı

parlaq
İMZALAR

Koordinator: Amin

Redaktorlar: Xavər ZAHİR
İlahə ƏHMƏDOVA

Korrektor: Cəriyyət MUSAYEVA

Tərtibatçı: İsmayıl SÜLEYMANLI

Cildin dizayneri: Bayram QAFAROV

**Лев Николаевич Толстой**
**ГДЕ ЛЮБОВЬ, ТАМ И БОГ** *(рассказы)*

**Lev Nikolayeviç Tolstoy**
**SEVGİ HARDADIRSA, TANRI ORDADIR** *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2025, 200 səh.

**© Лев Николаевич Толстой / 1859-1912**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 141
Klassiklər seriyası | 23

ISBN 9952580495

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
YANVAR / 2025

**Lev Tolstoy** 1828-ci il sentyabrın 9-da Rusiyanın Tula quberniyasının Yasnaya Polyana malikanəsində anadan olub. Uşaq yaşlarında öncə anasını, daha sonra atasını itirib. 1844-cü ildə Kazan Universitetinə daxil olaraq Şərq dilləri üzrə təhsil almağa başlayıb, lakin ikinci kursda təhsilini yarımçıq qoyaraq doğma kəndinə qayıdıb.
1863-69-cu illərdə ilk irihəcmli romanını – "Hərb və sülh"ü yazıb. 1873-77-ci illərdə isə bir qadının faciəvi taleyindən bəhs edən "Anna Karenina" romanı üzərində çalışıb. Sonuncu böyük romanı "Dirilmə" isə 1899-cu ildə çap olunub. Böyük yazıçının sonuncu romanı "Hacı Murad" isə 1912-ci ildə, ölümündən sonra çap olunub.
Lev Tolstoy 1910-cu il noyabrın 20-də "Astapova" stansiyasında pnevmoniyadan dünyasını dəyişib.

**Saday Budaqlı** 1955-ci il noyabrın 13-də Qazax rayonunda anadan olub. 1984-cü ildə M. Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.
Saday Budaqlı Mixail Bulqakovun "Master və Marqarita" romanını, Yasunari Kavabata və Migel Delibesin seçilmiş əsərlərini, həmçinin Qabriel Qarsia Markes, Mario Varqas Lyosa, Xuan Karlos Onetti və Kamilo Xose Sela kimi müəlliflərin əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**Mahir N. Qarayev** 1958-ci il iyulun 17-də Göyçayda anadan olub. 1985-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. 2014-2024-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzində tərcüməçi, dil mütəxəssisi kimi çalışıb. Folkner, Frans Kafka, Ernest Heminquey, Filip Rot, Qabriel Qarsia Markes kimi məşhur yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə edib.

# Mündəricat

SEVGİ HARDADIRSA, TANRI ORDADIR 9

YUXUDA NƏ GÖRDÜM 29

ALYOŞA QORŞOK 49

KORNEY VASİLYEV 61

BƏDBƏXTLƏR 89

KARMA 97

ÜÇ ÖLÜM 113

AXI NİYƏ? 133

BAHA BAŞA GƏLİR 171

YOLDAN ÖTƏNLƏ SÖHBƏT 181

UŞAQLAR BÖYÜKLƏRDƏN AĞILLIDIRLAR 187

ÖVLAD SEVGİSİ 193

# SEVGİ HARDADIRSA, TANRI ORDADIR

Şəhərdə Martın Avdeiç adlı bir çəkməçi yaşayırdı. O, zirzəmidə, yeganə pəncərəsi küçəyə açılan balaca bir otaqda qalırdı. Pəncərədən baxanda küçədən keçənlərin təkcə ayaqlarını görmək olurdu, amma Martın Avdeiç adamları elə çəkməsindən tanıyırdı. Eyni yerdə çoxdan yaşadığından tanışları da çox idi. Tək-tük adam tapılardı ki, qoca ustaya işi düşməsin, çəkməsi, ən azından, bir-iki dəfə Avdeiçin əlindən keçməsin. Bəzilərinə pəncə vurur, birini yamayır, birinin söküyünü tikir, birinə isə yeni üz çəkirdi. Və tez-tez də əlinin zəhmətini elə balaca pəncərəsindən görürdü. Baş qaşımağa vaxtı olmurdu, çünki Avdeiç yaxşı usta idi: işə həmişə vicdanla yanaşır, malın keyfiyyətlisini gətirir, müştəridən artıq pul götürmür, həm də qabaqcadan verdiyi sözə heç vaxt xilaf çıxmırdı – sifarişi deyilən müddətə çatdıracaqdısa, işə girişir, yox, əgər özünə arxayın deyildisə, yalandan boyun olmur, müştərini get-gələ salmırdı. Hamı da

Avdeiçi tanıdığından onun işi başından aşır, bikar günü olmurdu.

Avdeiç yaxşı insan idi, qocalıq qapısını kəsdirəndə qəlbini-ruhunu araşdırmağa və Tanrıya daha çox yaxınlaşmağa başlamışdı. O, hələ sahibkar yanında işlədiyi vaxtlarda arvadı dünyasını dəyişmiş, üç yaşlı bir oğlu qalmışdı. Nədənsə uşaqları erkən tələf olurdu, böyük uşaqları çoxdan ölmüşdü. Əvvəlcə Martın istəmişdi ki, yetim uşağı kəndə – bacısının yanına göndərsin, amma körpəyə qıymamışdı, "Qoy elə yanımda qalsın, özgə ailədə Kapitoşkama çətin olar", – deyə fikirləşmişdi. Buna görə sahibkardan ayrılmış, mənzil tutub doğma balası ilə baş-başa qalmışdı. İntəhası, övlad sarıdan Avdeiçin bəxti gətirməmişdi. Kapitoşka təzəcə dirçəlib atasının iş-gücünə yarımağa, üzünü güldürməyə başlamışdı ki, xəstəlik aman vermədi, tifil bircə həftənin içində canını tapşırdı. Oğlunu basdırandan sonra Martın ümidsizliyə qapıldı, müsibətin ağırlığından hətta Tanrıya da şəkk gətirdi. Elə ümidsizləşmişdi ki, dəfələrlə özünə ölüm diləmiş, onun kimi yaşlı birisinin canını almaq əvəzinə, gözünün ağı-qarası bircə oğlunu apardığına görə Tanrını qınamışdı. Artıq kilsənin də yolunu unutmuşdu, neçə vaxt idi ora ayaq basmırdı. Dərdini səkkiz il səyahət eləyib, Troitsadan sonra yanına gələn ahıl həmkəndlisinə də danışıb gileylənmişdi.

– Ey Allahın adamı, daha yaşamağa bir tikə həvəsim qalmayıb, – demişdi, – Tanrıdan özümə ölüm diləyirəm. Əlim hər yerdən üzülüb.

– Düz danışmırsan, Martın, – mömin qoca cavab vermişdi, – Tanrının işinə qarışmağa heç birimizin haq-

qı yoxdu. Özü bilən məsləhətdi, biz nə karəyik. Əsas olan bizim fikrimiz deyil, sahibimizin hökmüdü. Oğluna ölüm, sənə yaşamaq hökmünü Tanrı verib. Deməli, belə məsləhətdi. Ümidsizləşməyinin səbəbi isə sənin öz kefinlə yaşamaq istəyindən irəli gəlir.

– Axı mən indi kimdən ötrü, nədən ötrü yaşamalıyam?

– Tanrıdan ötrü! Naşükür olma, Martın, sənə bu həyatı verən odu, sən də ondan ötrü yaşamalısan. Tanrıdan ötrü yaşamağa başlayan kimi, heç bir çətinliyin olmayacaq, hər şey sənə çox asan gələcək.

– Axı Tanrıdan ötrü yaşamaq necə olur? – Martın fikrə gedib, bir qədər susandan sonra soruşmuşdu.

Qoca belə cavab vermişdi:

– Tanrı üçün necə yaşamağın yolunu bizə İsa göstərib. Savadın varmı sənin? Hərgah İncili tapıb oxusan, Tanrı naminə ömür sürməyin hikmətini anlayar, bunun nə olduğunu bilərsən. İncildə hamısı yazılıb.

Bu sözlər Avdeiçin ağlına batmışdı. Elə həmin gün özünə “Əhdi-cədid” alıb oxumağa başlamışdı.

Əvvəlcə Avdeiç istəyirdi ancaq bayram günlərində oxusun. Amma başlayan kimi ruhu elə sakitləşdi ki, gündəlik oxuya keçdi. Get-gedə marağı daha da artdı, necə aludə olmuşdusa, gecələr lampanın nefti yanıb qurtaranacan kitabdan ayrıla bilmirdi. Beləcə, hər axşam oxuyur, oxuduqca da Tanrının ondan nə istədiyini və Tanrı naminə necə yaşamaq lazım olduğunu daha aydın dərk edirdi. Sanki hər şey yavaş-yavaş öz yerini tutur, ürəyi dinclik tapırdı. Hər gecə yatağına girəndə ağır düşüncələrlə oğlunu fikirləşən, ah-zar içində

yalnız Kapitoşkanı xatırlayan zavallı atanın dilindən indi "Şükürlər olsun sənə, ya Rəbbim! Özün bilən məsləhətdir!" sözləri düşmürdü. Elə o vaxtdan da Avdeiçin yaşayış tərzi və bütün həyatı dəyişmişdi.

Əvvəllər bayramlarda tanışlardan birinə qoşulub çay içmək üçün meyxanaya baş çəkər, heç araqdan da imtina etməzdi. Sərxoşluq eləməsə də, içəndə hərdən cığallığı tuturdu; çox vaxt yeməkxanadan qanıqara çıxar, badə yoldaşının arxasınca xoşagəlməz şeylər danışar, ağzına gələni çərənləyərdi. İndi bu xasiyyətindən əl çəkmiş, belə sarsaq vərdişlər arxada qalmışdı. Həyatı dinc və sakit keçirdi. Bütün gün başını iş-güclə qatırdı: səhər açılandan axşamacan işini görür, axşamlar fənəri qarmaqdan çıxarıb stolun üstünə qoyur və rəfdən kitabı götürüb oxumağa başlayırdı. Oxuduqca da fəhmi artır, indiyəcən bilmədiyi bir çox qaranlıq mətləblər aydınlaşır, ruhu saflaşır və sevincə qərq olurdu.

Bir dəfə qiraətə başı necə qarışdısa, gecə yarıyacan kitabdan ayrıla bilmədi. Lukanın İncilindən altıncı fəsli oxuyanda belə bir yerə rast gəldi: "Bir yanağına vurana o biri yanağını da çevir və üst paltarını götürəndən köynəyini də əsirgəmə. Kimsə səndən bir şey istəyəndə ver. Səndən götürülən şeyi geri istəmə. İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin".[1]

Ardını oxudu. Tanrı buyururdu:

"Mənə: "ya Rəbb, ya Rəbb", – deyirsiniz, bəs niyə dediyimə əməl etmirsiniz? Yanıma gəlib sözlərimi eşi-

1. Luka, 6:29-31

dən və onlara əməl edən, bilirsiniz, kimə bənzəyir? O, dərin qazıb tikdiyi evin təməlini daş üzərində qoyan adama bənzəyir. Daşqın zamanı sel evin üstünə gəldi, amma evi yerindən tərpədə bilmədi, çünki ev möhkəm tikilmişdi. Sözlərimi eşidib onlara əməl etməyən isə evini torpağın üstündə bünövrəsiz tikmiş adama bənzəyir. Sel evin üstünə gələndə o ev uçub darmadağın oldu".[1]

Avdeiç bu hissəni oxuyanda qəlbinə bir rahatlıq çökdü. Gözlüyünü çıxarıb kitabın üstünə qoydu, masaya dirsəklənib fikrə getdi. Öz ömrünü indicə oxuduğu bu sözlərlə tutuşdurub düşünməyə başladı.

– Evimin özülü daşdandı, yoxsa qumdan? Yaxşı, qoy olsun daşdan. Demək asandı: tək oturmusan, sənə elə gəlir ki, hər şeyi Tanrının buyurduğu kimi etmisən. Arxayınlaşan kimi, yenə günah işlədirsən. İndən belə sənin buyurduğun kimi edəcəm, İlahi, həmişə buna can atacam. Özün köməyim ol, ya Rəbbim!

İstədi bu xoş niyyətlə uzanıb yatsın, amma kitabdan ayrıla bilmədi. Başladı yeddinci fəsli oxumağa. Yüzbaşıdan, dul qadının oğlundan, İoannanın şagirdlərinə cavabından, bir riyakar varlının Tanrını öz evinə qonaq çağırmasından bəhs edən yerləri oxudu; günahkar qadının İsanın ayağına məsh çəkib, göz yaşları ilə necə yuması və Tanrı tərəfindən bağışlanması yerlərini də oxuyub, 44-cü bəndə çatdı: "Sonra üzünü qadına tərəf çevirib Şimona dedi: "Bu qadını görürsən? Sənin evinə gəldim, ayaqlarımı yumağa mənə su vermədin. Amma bu qadın ayaqlarımı göz yaşları

1. Luka, 6:46-49

ilə yuyub, saçı ilə sildi. Sən məni öpmədin, amma bu qadın mən gələndən bəri ayaqlarımı nəvazişlə öpür. Sən başıma yağ sürtmədin, bu qadın isə ayaqlarıma ətirli yağ sürtdü".

Avdeiç bu sözləri oxuyub fikirləşdi: "Ayaqlarını yumağa su vermədi, öpmədi, başına yağ sürtmədi..."

Yenə eynəyini çıxarıb kitabın üstünə qoydu və yenə düşüncələrə daldı.

"Görünür, o riyakar elə mənim kimi olub. Hesab elə ki, mən də tək özümü düşünmüşəm: necə eləyim ki, rahat otaqda əyləşib isti çayımı içim, qonağa qayğı göstərmək isə yadıma da düşməsin. Qonaq da kim olsa yaxşıdır? Tanrının özü! Əgər O mənim evimə gəlmiş olsaydı, bəyəm mən bu cür rəftar edərdim?"

Avdeiç düşünə-düşünə başını əllərinə söykədi, elə oradaca yuxuya getdi. Birdən qulağının dibində tövşüyən bir nəfəs duydu və kiminsə "Martın!" nidasından diksinib ayıldı.

– Kim var burda? – Avdeiç qeyri-ixtiyari dilləndi, amma çevrilib qapıya baxanda heç kimi görmədi.

Təzədən mürgüləməyə başlamışdı ki, bu vaxt yenə səs eşitdi, özü də lap yaxından: "Martın, mən sabah gələcəm, küçəyə baxıb məni görərsən".

Avdeiç mürgüdən ayıldı, yerindən durub gözlərini ovuşdurdu. Bilmədi bu səsi yuxuda eşidib, yoxsa aşkarda. Lampanı söndürüb yatağına uzandı.

Sübh tezdən qalxıb Tanrıya dualar etdi, sobanı yandırıb kələm şorbasını və sıyığı odun üstünə qoydu, samovara od saldı, sonra önlüyünü taxıb pəncərənin qarşısına keçdi, oturub gündəlik işinə başladı. Amma

gecə qulağına dəyən səs yadından çıxmırdı. Fikri də haçalanmışdı, gah onu qara basdığını düşünür, gah da həmin səsi gerçəkdən eşitdiyini fikirləşirdi. "Hə, bunu da gördük, başımıza belə iş də gəldi, çarə nədir".

Avdeiç həmişəki kimi pəncərənin qabağında otursa da, işi candərdi görürdü, fikri-zikri çöldəydi, gözünü pəncərəyə dikmişdi ki, görsün küçədən tanış olmayan çəkmədə kim keçəcək. Hətta hərdən durub lap yaxından boylanırdı ki, adamların təkcə ayağını yox, üzünü də görə bilsin. Küçədən təzə çəkməli dalandar, sonra sudaşıyan keçdi. Daha sonra ayağında yamaqlı keçə çəkmə, əlində kürək olan qoca göründü. Avdeiç kişini nimdaş çəkmələrindən tanıdı – Stepanıç dedikləri bu qoca vaxtilə Nikolayın əsgəri olmuşdu. Qonşuluqdakı tacirin evində qalan Stepanıçın işi dalandara kömək eləmək idi və indi pəncərənin önündə qar kürüyürdü. Avdeiç bir az baxandan sonra yenidən işinə davam elədi.

– Deyəsən, qocalıb xərifləmişəm axı, – Avdeiç qımışdı. – Stepanıç küçədə qar təmizləyir, mən də onu yanıma gələn İsa bilirəm. Ay qoca kaftar, lap gicləmisən.

Amma çəkməyə beş-üç tikiş vurmuşdu ki, özünü saxlaya bilməyib yenə pəncərəyə boylandı və gördü ki, Stepanıç əlindəki kürəyi divara söykəyib dincəlir. Kim bilir, bəlkə də, isinmək istəyirdi. Görünür, hay-hayı gedib, vay-vayı qalmış qocanın qar kürüməyə ərdəmi gəlmirdi. Avdeiç fikirləşdi ki, bəlkə, qocanı içəri çağırıb çaya qonaq eləsin, elə samovar da təzəcə qaynamışdı.